2026

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# APREL

## ASA-ya yeni icraçı direktor təyin olundu



"Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyinə yeni icraçı direktor təyin olunub.

"Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyində Təsisçilərin Ümumi Yığıncağının 2025-ci ilin yekunlarına həsr olunmuş iclası keçirilib.

İclasın gündəliyində duran məsələlərdən biri Birliyin icraçı direktorunun səlahiyyət müddəti ilə bağlı olub.

Belə ki, Elmar Mirsalayevin icraçı direktor olaraq səlahiyyət müddəti sona çatdığı üçün səsvermə keçirilib və Abas Miskərli ASA-nın yeni icraçı direktoru seçilib.

Qeyd edək ki, A.Miskərli 1989-cu ildə Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində bakalavr, Qərb Universitetində isə magistr təhsili alıb. 2012-ci ildə İngiltərənin Beynəlxalq Çarter Sığorta Universitetində təhsilini davam edərək, 2016 ildə "Dip.CII" dərəcəsini alıb. Habelə dünyaca nüfuzlu Kembric Universitetində maliyyə üzrə magistr təhsili alıb. 20 ilə yaxın peşəkar sığortaçı təcrübəsinə malik olan A.Miskərli əmək fəaliyyəti müddəti ərzində müxtəlif sığorta şirkətlərində rəhbər vəzifələrdə çalışıb.

## ASA 20-30 Mart tarixlərində baş vermiş sığorta hadisələrinin statistikasını açıqladı




ASA-nın yerli sığorta bazarı iştirakçılarından aldığı məlumatlara görə, 20-30 mart 2026-cı il tarixlərdə baş vermiş sığorta hadisələri ilə bağlı 8 qeyri-həyat sığorta şirkətinə ümumilikdə 4576 sığortalı müraciəti daxil olub.

Bu müraciətlərin 3636-sı "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası" növü, 651-i "Kasko" ("Avtonəqliyyat vasitələrinin sığortası") sığorta növü, 210-u "Daşınmaz əmlakın icbari sığortası" növü, 80-i isə "Əmlakın yanğından və digər risklərdən sığortası" növü üzrə baş vermiş sığorta hadisələri ilə bağlı olub.

Məlumatlara görə, qiymətləndirilmiş 4045 sığorta hadisəsi üzrə ehtimal olunan zərər məbləği 6 milyon 57 min 25 manat həcmində müəyyənləşdirilib. Qalan 531 hadisə üzrə isə zərər qiymətləndirməsi prosesi davam edir.

Qeyd edək ki, hadisələrin 77%-i paytaxt Bakıda, 23%-i isə respublikamızın digər bölgələrində (xüsusilə Şimal bölgəsində) qeydə alınıb.

## Sığortaçılar arasında növbəti dəfə “Nə? Harada? Nə zaman?” intellektual yarışması keçirildi



Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzinin təşkilatçılığı, eyni zamanda, yerli peşəkar sığorta bazarı iştirakçılarının dəstəyi ilə sığorta şirkətləri arasında növbəti dəfə “Nə? Harada? Nə zaman?” intellektual yarışması təşkil olundu.

Oyunda ayrı-ayrı sığorta şirkətlərinin əməkdaşlarında formalaşdırılmış ümumilikdə 10 komanda mükafatlar uğrunda mübarizə apardı.

Qeyd edək ki, bu kimi tədbirlərin keçirilməsində başlıca məqsəd sığorta sektorunda fəaliyyət göstərən şirkətlər arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, peşəkar ünsiyyətin genişləndirilməsi və əməkdaşlıq mühitinin daha da möhkəmləndirilməsindən ibarətdir.

## İntensiv yağışların yaratdığı sığortalı zərər açıqlandı




ASA-nın yerli sığorta bazarı iştirakçılarından aldığı bu günə olan son dəqiq məlumatlara görə, 4-6 aprel 2026-cı il tarixlərdə baş vermiş sığorta hadisələri ilə bağlı 5 qeyri-həyat sığorta şirkətinə ümumilikdə 620 sığortalı müraciəti daxil olub.

Bu müraciətlərin 417-si “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” növü, 75-i “Kasko” (“Avtonəqliyyat vasitələrinin sığortası”) sığorta növü, 103-ü “Daşınmaz əmlakın icbari sığortası” növü, 25-i isə “Əmlakın yanğından və digər risklərdən sığortası” növü üzrə baş vermiş sığorta hadisələri ilə bağlı olub.

Məlumatlara görə, qiymətləndirilmiş 442 sığorta hadisəsi üzrə ehtimal olunan zərər məbləği 311 min 720 manat həcmində müəyyənləşdirilib. Qalan 178 hadisə üzrə isə zərər qiymətləndirməsi prosesi davam edir.

Qeyd edək ki, hadisələrin 71%-i paytaxt Bakıda, 29%-i isə respublikamızın digər bölgələrində (xüsusilə Abşeron ərazisində) qeydə alınıb.

## Azərbaycanlı sığortaçılar ABŞ-də xüsusi təlim proqramında iştirak ediblər

Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) və yerli sığorta şirkətlərinin rəhbərliklərindən ibarət nümayəndə heyəti ABŞ-nin San-Fransisko şəhərində keçirilən “İnnovasiya və Təlim Proqramı”nda iştirak ediblər.






ASA-nın təşkilatçılığı ilə həyata keçirilən səfər çərçivəsində yerli nümayəndə heyəti Stanford Universitetində keçirilən xüsusi təlim proqramına qatılıb. İştirakçılar, təlimlərlə yanaşı universitetin innovasiya ekosistemi ilə yaxından tanış olublar.

Proqram çərçivəsində nümayəndə heyəti “Google”, “Meta” və “Apple” kimi nüfuzlu beynəlxalq şirkətlərə səfər edib, bu qurumların innovasiya yanaşmaları və texnoloji inkişaf istiqamətləri barədə geniş məlumat əldə ediblər.






Azərbaycan sığortaçılarından ibarət nümayəndə heyəti, həmçinin, proqram təminatının inkişafında çevik idarəetmə yanaşmalarına həsr olunmuş “SCRUM” texnologiyası üzrə təlimdə də iştirak edib. Bu təlim çərçivəsində sığorta sektorunda proqram təminatının daha çevik və effektiv şəkildə hazırlanması imkanları müzakirə olunub.

Səfər zamanı innovativ startap şirkətlərlə də görüşlər keçirilib. Bu çərçivədə “Stack AI” və “Further AI” şirkətlərində təşkil olunan görüşlərdə süni intellektin sığorta sahəsində tətbiqi, xüsusilə risklərin qiymətləndirilməsi, müştəri xidmətləri və avtomatlaşdırma istiqamətləri üzrə təqdimatlar dinlənilib və müzakirələr aparılıb.

## ASA “Sahibkarlar günü”nə həsr olunmuş tədbirdə iştirak edib



İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə “Sahibkarlar günü”nə həsr olunmuş “Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır” mövzusunda tədbir keçirilib.

Azərbaycan Sığortaçılar Assosiasiyasının rəhbərliyindən ibarət nümayəndə heyətinin də dəvətli olduğu tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

## ASA ağacəkmə aksiyasında iştirak edib




Azərbaycan Sığortaçılar Assosiasiyası (ASA) və ASA-ya üzv sığorta şirkətləri Müşfiqabad qəsəbəsində təşkil olunan ağacəkmə aksiyasında iştirak ediblər.

Aksiya, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Ağacəkmə tədbirləri üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" çərçivəsində keçirilib.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Mərkəzi Bankı, habelə, ASA ilə yanaşı digər maliyyə bazarı assosiasiyalarının da birgə təşəbbüsü ilə həyata keçirilən aksiya ölkə miqyasında ekoloji tarazlığın bərpasına və yaşıllıq sahələrinin genişləndirilməsinə yönəlib.

Qeyd edək ki, Memorandumun strateji məqsədi 10 il ərzində (2023-2033-cü illər) ölkə ərazisində ümumilikdə 1 000 000 ağac əkməkdir. Bu ilin aksiyası çərçivəsində iştirakçılar tərəfindən 1 hektar sahədə 625 ədəd Eldar şamı və zeytun ağacı əkilərək həmin hədəfə doğru mühüm bir addım atılıb.

## Ev heyvanları sığortası bazarı 27 milyard dollara çatır




Qlobal ev heyvanları sığortası bazarı baytarlıq xidmətlərinin bahalaşması, ev heyvanı sahibliyi tendensiyasının artması və daha geniş əhatəli sığorta məhsullarına artan tələbin təsiri fonunda böyüməkdə davam edir.

Beynəlxalq "Credence Research" təşkilatının məlumatlarına görə, bazarın 2032-ci ilə qədər illik orta hesabla 11,41% artım göstərərək 27 milyard dollar həcminə çatacağı proqnozlaşdırılır.

Regional bölgüyə görə, qlobal ev heyvanları sığortası bazarının 52%-i Şimali Amerikanın, 31%-i Avropanın, 11%-i Asiya-Sakit okean regionunun, 4%-i Latın Amerikasının, 2%-i isə Yaxın Şərq və Afrika regionunun payına düşür.

## Qlobal sığorta sənayesi üçün yeni yol xəritəsi

Belçika və Lüksemburq sığortaçılarının birgə təşkil etdiyi "2025 DECAVI CEO" tədbirində sığorta sektorunun preventiv yanaşmalar, texnologiya və etibar müstəvisində yenidən formalaşdığı; iqlim, kibertəhlükə və geosiyasi risklər qarşısında dayanıqlı modelə keçidin sürətləndiyi vurğulanıb.




Müzakirələrdə qeyd olunub ki, sığortaçılıq artıq yalnız zərərin ödənilməsinə əsaslanan model olmamalıdır, sığortanın preventiv və dayanıqlılıq əsaslı yanaşmaya transformasiya olunması da zəruridir.

Tədbirdə iqlim dəyişikliyi, demoqrafik transformasiya, yeni mobillik modelləri və təbii fəlakətlərin artan tezliyi kimi amillərin sığortaçıları ənənəvi rollarının hüdudlarından kənara çıxardığı qeyd olunub. Bildirilib ki, bu gün sektor 3 risklə üzləşir: iqlim riskləri, həssas təchizat zəncirləri və artan kibertəhlükələr. Bu kontekstdə sığorta şirkətlərinin yalnız kompensasiya ödəyən qurumlar olmaqdan çıxaraq, müştərilərə erkən xəbərdarlıq sistemləri, risklərin azaldılması həlləri, biznesin fasiləsizliyinin təmininə dəstək və kiberdavamlılıq xidmətləri təqdim etməsinin vacibliyi də vurğulanıb.

Tədbirin yekununda sığorta sektorunun gələcəyinə dair 3 əsas anlayış ön plana çıxıb: preventiv yanaşma, etibar və dayanıqlıq.

| Sığorta sinifləri | 2025-ci il yanvar-mart | | 2026-cı il yanvar-mart | | Dinamika | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| **Könüllü sığortalar üzrə - cəmi:** | 307.945 | 134.102 | 352.277 | 180.319 | 14% | 34% |
| **Həyat sığortası üzrə, o cümlədən:** | 178.120 | 108.495 | 210.392 | 151.717 | 18% | 40% |
| Həyatın yaşam sığortası | 168.455 | 107.372 | 197.539 | 150.288 | 17% | 40% |
| Həyatın ölüm halından sığortası | 7.978 | 627 | 9.902 | 911 | 24% | 45% |
| Əmək qabiliyyətinin sığortası | 818 | 151 | 875 | 17 | 7% | -89% |
| Sağalmaz xəstəliklərdən sığorta | 869 | 345 | 2 076 | 501 | 139% | 45% |
| **Qeyri-həyat sığortası üzrə, o cümlədən** | 129.826 | 25.607 | 141.885 | 28.602 | 9% | 12% |
| **Şəxsi sığorta,  o cümlədən:** | 77.071 | 17 097 | 75.984 | 19.032 | -1% | 11% |
| Tibbi sığorta | 74.488 | 16.949 | 72.518 | 18.616 | -3% | 10% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 975 | 70 | 1.738 | 347 | 78% | 393% |
| Fərdi qəza və xəstəlik sığortası | 1.608 | 77 | 1.727 | 70 | 7% | -10% |
| **Əmlak sığortası, o cümlədən:** | 52.755 | 8.509 | 65.901 | 9.570 | 25% | 12% |
| **Əmlakın sığortası,  o cümlədən:** | 42.885 | 8.462 | 56.577 | 9.534 | 32% | 13% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 16.647 | 515 | 22.951 | 482 | 38% | -6% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 15.748 | 6.615 | 16.785 | 8.387 | 7% | 27% |
| Yüklərin (nəqliyyat) sığortası | 1.280 | 12 | 1.520 | 48 | 19% | 286% |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 252 | 96 | 1.212 | 134 | 381% | 40% |
| Su nəqliyyat vasitələrinin sığortası | 200 | 0 | 2.572 | 0 | 1188% | 0 |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 22 | 0 | 1.305 | 0 | 5957% | 0 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 8.652 | 1.224 | 10.108 | 160 | 17% | -87% |
| **Əmlakın sığortası ilə bağlı digər siniflər,  o cümlədən:** | 86 | 0 | 67 | 0 | -22% | 0 |
| İşçilərin dələduzluğu sığortası | 86 | 0 | 67 | 0 | -22% | 0 |
| **Mülki məsuliyyətin sığortası, o cümlədən:** | 8.496 | 26 | 7.930 | 26 | -7% | 1% |
| Ümumi mülki məsuliyyətin sığortası | 3.891 | 15 | 4.688 | 17 | 20% | 12% |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 957 | 8 | 1.690 | 1 | 77% | -88% |
| Peşə məsuliyyətinin sığortası | 1.255 | 2 | 1.211 | 8 | -4% | 227% |
| Işəgötürənin məsuliyyət sığortası | 125 | 0 | 204 | 0 | 64% | 0 |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 3 | 0 | 9 | 0 | 248% | 0 |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 2.117 | 0 | 13 | 0 | -99% | 0 |
| Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 150 | 0 | 106 | 0 | -29% | 0 |
| **Kredit sığortası, o cümlədən:** | 1.372 | 22 | 1.392 | 10 | 1% | -53% |
| Kreditlərin sığortası | 1.372 | 22 | 1.392 | 10 | 1% | -53% |
| **İcbari sığortalar üzrə - cəmi:** | 91.138 | 29.927 | 65.476 | 38.137 | -28% | 27% |
| **Həyat sığortası üzrə** | 24.153 | 1.026 | 17.076 | 647 | -29% | -37% |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 24.153 | 1.026 | 17.076 | 647 | -29% | -37% |
| **Qeyri-həyat sığortası üzrə** | 66.985 | 28.902 | 48.400 | 37.490 | -28% | 30% |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 38.530 | 28.020 | 40.728 | 36.870 | 6% | 32% |
| Daşınmaz əmlakın icbari sığortası | 28.171 | 832 | 7.496 | 567 | -73% | -32% |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 251 | 1 | 155 | 46 | -38% | 4491% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 19 | 49 | 13 | 6 | -33% | -87% |
| Digər icbari sığorta növləri | 14 | 0 | 8 | 0 | -45% | 0 |
| **Yekun** | 399.083 | 164.029 | 417.753 | 218.456 | 5% | 33% |

Azərbaycan sığorta bazarında 2026-cı ilin yanvar-mart aylarının nəticələrini 2025-ci ilin yanvar-mart aylarının nəticələri ilə müqayisə etdikdə, sığorta haqlarının 5% artaraq 399 milyon 83 min manatdan, 417 milyon 753 min manata qədər yüksəldiyi müşahidə olunur.

Hesabat dövründə Azərbaycanın sığorta bazarının böyüməsində 3 istiqamət mühüm rol oynayıb: Həyatın yaşam sığortası, Əmlakın yanğından və digər risklərdən sığortası və Su nəqliyyat vasitələrinin sığortası. Belə ki, Həyatın yaşam sığortası növü üzrə sığorta haqlarında 29 milyon 84 min manat, Əmlakın yanğından və digər risklərdən sığortası istiqamətində 6 milyon 304 min manat, Su nəqliyyat vasitələrinin sığortası üzrə isə 2 milyon 372 min manat artım qeydə alınmışdır.




Təqdim olunan qrafiklərdən də görünür ki, 2026-cı ilin yanvar-mart ayları üzrə sığorta ödənişlərinin həcmində 2025-ci ilin yanvar-mart aylarının nəticələri ilə müqayisədə 33% artım müşahidə olunmuşdur. Ödənişlərin faiz göstəricisinin artım səbəbi olaraq Həyatın yaşam sığorta növü üzrə ödənişlərin 42 milyon 916 min manat dəyərində yüksəlməsidir. 2026-cı il üzrə ümumi sığorta ödənişlərinin 70%-i həyat sığortası, 30%-i isə qeyri-həyat sığortası sinfinin payına düşür.













2025-ci və 2026-cı illərin yanvar-mart aylarının yekun müqayisəsinə əsasən, yığımlarda könüllü sığorta növlərinin 44 milyon 332 min manat artaraq sığorta bazarının 84% hissəsini əhatə etdiyi görünür. Könüllü sığortalar üzrə ödənişlər isə bazar payının 87%-ni özündə əks etdirir.

## Könüllü sığorta haqları 2026-cı il yanvar-mart




## Könüllü sığorta ödənişləri 2026-cı il yanvar-mart




## İcbari sığorta haqları 2026-cı il yanvar-mart




## İcbari sığorta ödənişləri 2026-cı il yanvar-mart




Qeyd:
AVSMMİS - Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası
İBHİS - İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta
DƏİS - Daşınmaz əmlakın icbari sığortası

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-cı illər yanvar-mart ayları üzrə sığorta haqları)

| Dinamika (min manatla) | Sığorta növü | % |
|---|---|---|
| 29.084 | Həyatın yaşam sığortası | 17% |
| 1.924 | Həyatın ölüm halından sığortası | 24% |
| 57 | Əmək qabiliyyətinin sığortası | 7% |
| 1.206 | Sağalmaz xəstəliklərdən sığorta | 139% |
| -7.077 | İBHİS | -29% |

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-cı illər yanvar-mart ayları üzrə sığorta ödənişləri)

| Dinamika (min manatla) | Sığorta növü | % |
|---|---|---|
| 42.916 | Həyatın yaşam sığortası | 40% |
| 285 | Həyatın ölüm halından sığortası | 45% |
| 156 | Sağalmaz xəstəliklərdən sığorta | 45% |
| -134 | Əmək qabiliyyətinin sığortası | -89% |
| -379 | İBHİS | -37% |

Həyat sığortası məhsulları 2026-cı il yanvar-mart ayları üzrə yerli sığorta bazarında öz aktivliyini qorumağa davam edir. 417 milyon 753 min manat yığımın 54%-ni, yəni 227 milyon 468 min manatı bu sığorta sinfinin payına düşür. Həyat sığortası sinfində bütün yığımların 87%-ni Həyatın yaşam sığortası, 5%-ni isə Həyatın ölüm halından sığortası və Sağalmaz xəstəliklərdən sığorta növləri üzrə yığımlar təşkil edir. Buna baxmayaraq, İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (İBHİS) növü üzrə yığımlarda 29% (7 mln. 77 min manat) azalma müşahidə olunmuşdur.

## QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-ci illər yanvar-mart ayları üzrə sığorta haqları)

| Dinamika (min manatla) | Sığorta növü | |
|---|---|---|
| 763 | Xaricə səfər edən vətəndaşların sığortası | 78% |
| 120 | Fərdi qəza və xəstəlik sığortası | 7% |
| 6.304 | Əmlakın yanğından və digər risklərdən sığortası | 38% |
| 1.037 | Avtonəqliyyat vasitələrinin sığortası | 7% |
| 240 | Yüklərin (nəqliyyat) sığortası | 19% |
| 960 | Kənd təsərrüfatı heyvanlarının sığortası | 381% |
| 2.372 | Su nəqliyyat vasitələrinin sığortası | 1188% |
| 1.284 | Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 5957% |
| 1.456 | Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 17% |
| 797 | Ümumi mülki məsuliyyətin sığortası | 20% |
| 733 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası | 77% |
| 79 | İşəgötürənin məsuliyyət sığortası | 64% |
| 7 | Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 248% |
| 20 | Kreditlərin sığortası | 1% |
| 2.198 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 6% |

2025-ci ilin 1-ci rübünə nisbətdə 2026-cı ilin analoji dövründə yığılan məbləğə görə könüllü sığorta növlərində 44 milyon 332 min manat artım qeydə alınıb. Sığorta bazarının cari mənzərəsinə nəzər saldıqda, Dəmiryol nəqliyyatı vasitələrinin sığortasında müşahidə olunan 5957%-lik artım bu sahədə qeyri-adi bir canlanmanın göstəricisidir. Eyni zamanda, Su nəqliyyat vasitələrinin sığortası üzrə yığımların 1188% artması risklərin idarə olunmasına yanaşmanın köklü şəkildə dəyişdiyini və bu sahədə sığorta mədəniyyətinin sürətlə formalaşdığını sübut edir. Bazarın ümumi maliyyə dayanıqlığını təmin edən Yük daşıyanın mülki məsuliyyətinin sığortası seqmentindəki 248%-lik və Kənd təsərrüfatı heyvanlarının sığortasındakı 381%-lik artımlar isə artıq sığortanın sadəcə bir xidmət deyil, həm biznes, həm də fərdi şəxslər üçün zəruri qorunma mexanizminə çevrildiyini təsdiqləyir. Həm Xaricə səfər edən vətəndaşların sığortasının (78%), həm də İşəgötürənin məsuliyyət sığortasının (64%) sinxron şəkildə yüksəlməsi bazarın ənənəvi sahələrindəki rəqabətin və nəzarətin gücləndiyini göstərən daha bir vacib amildir. Bütün bu statistik mənzərə onu deyir ki, Azərbaycan sığorta bazarı daha mürəkkəb və şaxələnmiş bir struktura sahib olmağa başlayıb.

## QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-ci illər yanvar-mart ayları üzrə sığorta haqları)




| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Tibbi sığorta | -1.970 |
| İşçilərin dələduzluğu sığortası | -19 |
| Peşə məsuliyyətinin sığortası | -44 |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -2.104 |
| Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | -44 |
| Daşınmaz əmlakın icbari sığortası | -20.675 |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | -96 |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | -6 |

## QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-ci il yanvar-mart ayları üzrə sığorta ödənişləri)

| Dinamika (min manatla) | Sığorta növü | |
|---|---|---|
| 1.666 | Tibbi sığorta | 10% |
| 276 | Xaricə səfər edən vətəndaşların sığortası | 393% |
| 1.772 | Avtonəqliyyat vasitələrinin sığortası | 27% |
| 35 | Yüklərin (nəqliyyat) sığortası | 286% |
| 39 | Kənd təsərrüfatı heyvanlarının sığortası | 40% |
| 2 | Ümumi mülki məsuliyyətin sığortası | 12% |
| 6 | Peşə məsuliyyətinin sığortası | 227% |
| 8.850 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 32% |
| 45 | Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 4491% |

Cədvələ nəzərən görünür ki, Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə ödənişlərdə qeydə alınan 4491%-lik sıçrayış bazarda baş verən hər hansı ciddi bir hadisənin və ya kütləvi kompensasiya prosesinin birbaşa əksi kimi görünür. Eyni zamanda, Xaricə səfər edən vətəndaşların sığortası üzrə ödənişlərin 393% artması səyahət aktivliyinin bərpası ilə yanaşı, sığorta hadisələrinin tezliyinin və ya miqyasının artdığını təsdiq edir. Peşə məsuliyyətinin sığortası (227%) və Yüklərin sığortası (286%) üzrə ödənişlərdəki dinamika isə artıq bu sahələrdə sığorta təminatının real maliyyə itkilərini qarşılamağa başladığını və sığortanın funksionallığının artdığını göstərir. Bazarda mütləq rəqəmlərlə ən böyük ödəniş həcmi isə yenə də Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (8.85 milyon manat artım) və Tibbi sığorta (1.66 milyon manat artım) payına düşür ki, bu da həmin növlərin sosial əhəmiyyətini və yüksək zərərliliyini bir daha ön plana çıxarır. Ümumilikdə, bu göstəricilər sığorta bazarında risklərin reallaşma tezliyinin artdığını və şirkətlərin öhdəliklərini icra etmə sahəsində aktivliyinin yüksəldiyini əyani şəkildə nümayiş etdirir.

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-ci illər yanvar-mart ayları üzrə sığorta ödənişləri)




| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Fərdi qəza və xəstəlik sığortası | - 8 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | - 33 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | - 1.064 |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | - 7 |
| Kreditlərin sığortası | - 12 |
| Daşınmaz əmlakın icbari sığortası | - 265 |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | - 42 |

Sığorta ödənişlərinin 2026-cı ilin yanvar-mart ayları üzrə dinamikasına nəzər saldıqda, bazarda bəzi seqmentlərdə kəskin azalma meyilinin üstünlük təşkil etdiyi görünür. Ən diqqətçəkən məqam Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə ödənişlərin 87% (1 milyon 64 min manat) azalmasıdır ki, bu da cari dövrdə aqrar sahədə sığorta hadisələrinin kütləvi xarakter almadığını və risklərin minimum səviyyədə qaldığını göstərir. Analoji kəskin azalma faktı Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası (88%) və Sərnişinlərin icbari fərdi qəza sığortası (87%) növlərində də müşahidə olunur ki, bu da birbaşa olaraq zərərlilik dərəcəsinin aşağı düşməsinin əyani sübutudur. Daşınmaz əmlakın icbari sığortası üzrə ödənişlərin 32% (265 min manat) azalması isə bu seqmentdə daha stabil bir mühitin formalaşdığından xəbər verir. Ödənişlərin həcmindəki bu ümumi geriləmə sığorta şirkətlərinin cari dövr üzrə maliyyə portfelinin dayanıqlığına müsbət təsir edən və bazarda risklərin idarə olunması baxımından "sakit" keçən bir mərhələni nümayiş etdirir.

# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-cı illər yanvar-mart ayları üzrə)

| № | Qeyri-həyat Sığorta Şirkətləri | 2025 -ci il yanvar-mart | | 2026-cı il yanvar-mart | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları | Sığorta ödənişləri |
| 1 | "A-Qroup Sığorta Şirkəti" ASC | 4.385 | 2.420 | 3.979 | 3.104 | -9% | 28% |
| 2 | "AtaSığorta" ASC | 2.488 | 1.074 | 2 | 1.915 | -100% | 78% |
| 3 | "Atəşgah" Sığorta Şirkəti ASC | 14.849 | 8.398 | 13.251 | 9.689 | -11% | 15% |
| 4 | "Aqrar Sığorta" ASC | 8.817 | 1.320 | 11.319 | 265 | 28% | -80% |
| 5 | "Azərbaycan Sənaye Sığorta" ASC | 8.640 | 2.785 | 9.124 | 4.142 | 6% | 49% |
| 6 | "AzSığorta" ASC | 1.910 | 419 | 1.927 | 360 | 1% | -14% |
| 7 | "Xalq Sığorta" ASC | 7.647 | 1.808 | 7.282 | 2.399 | -5% | 33% |
| 8 | "İpək Yolu Sığorta" ASC | 482 | 11 | 549 | 0 | 14% | -96% |
| 9 | "Qala Sığorta" ASC | 25.181 | 5.170 | 13.355 | 5.919 | -47% | 14% |
| 10 | "Meqa Sığorta" ASC | 7.529 | 3.428 | 7.182 | 3.942 | -5% | 15% |
| 11 | "PAŞA Sığorta" ASC | 114.882 | 27.676 | 122.315 | 34.357 | 6% | 24% |
| YEKUN | | 196.811 | 54.508 | 190.285 | 66.092 | -3% | 21% |

Sığorta bazarının 2026-cı ilin birinci rübü üzrə icmal göstəricilərini təhlil etdikdə, bazarın əsas mənzərəsini formalaşdıran şirkətlərdə kəskin dinamikalar diqqət çəkir. Bazarın mütləq lideri olan "PAŞA Sığorta" ASC sığorta haqlarını 6% artıraraq 122.3 milyon manata çatdırmış, eyni zamanda, ödənişlərdə də 24%-lik bir artımla bazar payını möhkəmləndirmişdir. "Aqrar Sığorta" ASC isə rübün ən maraqlı statistik nəticəsini nümayiş etdirmişdir. Belə ki, şirkət sığorta haqlarını 28% artıraraq 11.3 milyon manata çatdırdığı halda, sığorta ödənişlərində 80%-lik kəskin bir azalmaya nail olmuşdur.

Beləliklə, biz hesabat dövrü ərzində bazar üzrə bütün sığorta haqlarının 46%-nin qeyri-həyat sığorta şirkətləri tərəfindən təmin olunduğunu görə bilirik.

## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)







## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)






# HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA
## (2025 - 2026-cı illər yanvar-mart ayları üzrə)

| № | Sığortaçının adı | 2025-ci il yanvar mart | | 2026-cı il yanvar-mart | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları | Sığorta ödənişləri |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 27.625 | 8.201 | 29.617 | 21.667 | 7% | 164% |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 2.549 | 2.311 | 2.972 | 1.894 | 17% | -18% |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 6.536 | 192 | 6.626 | 955 | 1% | 396% |
| 4 | "Meqa Həyat" Sığorta ASC | 3.731 | 706 | 6.613 | 744 | 77% | 5% |
| 5 | "PAŞA Həyat Sığorta" ASC | 161.832 | 98.110 | 181.640 | 127.104 | 12% | 30% |
| YEKUN | | 202.273 | 109.521 | 227.468 | 152.364 | 12% | 39% |

Həyat sığortası bazarının 2025 - 2026-cı illər yanvar-mart ayları üzrə müqayisəli göstəriciləri sektorun həm gəlirlilik, həm də öhdəliklərin icrası baxımından ciddi bir genişlənmə fazasında olduğunu təsdiq edir. Bazarın mütləq lideri olan "PAŞA Həyat Sığorta" ASC sığorta haqlarını 12% artıraraq 181.6 milyon manata çatdırmış, eyni zamanda ödənişlərdə də 30%-lik artımla bazarın əsas ağırlıq mərkəzi olmağa davam etmişdir. İkinci pillədə qərarlaşan "Atəşgah Həyat" Sığorta Şirkəti ASC sığorta haqlarında 7%-lik stabil artım nümayiş etdirsə də, ödənişlərinin 164% kimi kəskin bir sıçrayışla artması şirkətin cari dövrdə yüksək zərərliliklə üzləşdiyini göstərir. Üçüncü mövqedə dayanan "Qala Həyat" Sığorta Şirkəti ASC isə sığorta haqlarında cüzi (1%) artım qeydə alsa da, sığorta ödənişlərinin 396% artaraq 955 min manata yüksəlməsi bu portfel üzrə risklərin reallaşma tezliyinin əhəmiyyətli dərəcədə artdığının göstəricisidir.

Beləliklə, biz ümumi bazar üzrə bütün sığorta yığımlarının 54%-nin həyat sığorta şirkətləri tərəfindən həyata keçirildiyini görə bilirik.

## Həyat sığorta şirkətləri TOP- 5 (sığorta haqları üzrə)







## Həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)






# KASKO məhsulu üzrə ödəniş edilmiş avtomobillərə dair I rüb üzrə məlumat

| | 2025-ci il yanvar-mart | | | 2026-cı il yanvar-mart | | | |
|---|---|---|---|---|---|---|---|
| Sığorta şirkətinin adı | Fiziki | Hüquqi | Cəmi | Fiziki | Hüquqi | Cəmi | Dinamika |
| "A-Qroup Sığorta Şirkəti" ASC | 29 | 51 | 80 | 31 | 43 | 74 | -8% |
| "Atəşgah" Sığorta Şirkəti ASC | 223 | 228 | 451 | 415 | 240 | 655 | 45% |
| "Azərbaycan Sənaye Sığorta" ASC | 6 | 147 | 153 | 16 | 256 | 272 | 78% |
| "AZSIĞORTA" ASC | 3 | 15 | 18 | 3 | 6 | 9 | -50% |
| "Xalq Sığorta" ASC | 45 | 63 | 108 | 60 | 87 | 147 | 36% |
| "İpək Yolu Sığorta" ASC | 3 | 3 | 6 | - | - | - | 0 |
| "Qala Sığorta" ASC | 42 | 226 | 268 | 85 | 234 | 319 | 19% |
| "Meqa Sığorta" ASC | 44 | 144 | 188 | 71 | 238 | 309 | 64% |
| "PAŞA Sığorta" ASC | 779 | 498 | 1277 | 1448 | 585 | 2033 | 59% |

Cədvəldən göründüyü kimi, 2025-ci və 2026-cı illərin yanvar-mart ayları üzrə ümumi müqavilə saylarında KASKO sığorta növündə 78% artım nümayiş etdirən "Azərbaycan Sənaye Sığorta" ASC birinci, 64% artımla "Meqa Sığorta" ASC ikinci, "PAŞA Sığorta" ASC isə 59% artım dinamikası ilə üçüncü yerdə qərarlaşıb.

Həcmi ifadədə isə ən böyük artım "PAŞA Sığorta" ASC tərəfindən qeydə alınıb və şirkət ümumi KASKO üzrə 3.535.724 AZN ödənişlə birinci yerdə qərar tutub.

Ümumi yekunda bu dəyişikliklər KASKO sığorta növü üzrə 2025-ci və 2026-cı illərin yanvar-mart ayları müqayisəsində bazarda bütövlükdə 1438 ədəd yeni KASKO müqaviləsinin artması deməkdir.

## Hüquqi şəxslər üzrə KASKO sığortası 2026-cı il yanvar-mart ayları üzrə statistika (sayla)




2026-cı ilin yanvar-mart ayları üzrə hüquqi şəxslərin KASKO sığortası portfelinin statistik təhlili göstərir ki, hesabat dövründə bazarda korporativ müştərilər, yəni özəl sektor mütləq üstünlük təşkil edir və dövlət qurumları seqmentinin ümumi portfeldəki xüsusi çəkisi olduqca aşağıdır. Şirkətlər üzrə göstəriciləri nəzərdən keçirdikdə “PAŞA Sığorta” ASC həm korporativ seqmentdə (534 müqavilə ilə), həm də dövlət seqmentində (51 müqavilə ilə) bazarın şəriksiz lideri kimi çıxış edir.

Bununla yanaşı, “Azərbaycan Sənaye Sığorta” ASC 256 müqavilə, “Meqa Sığorta” ASC 237 müqavilə, “Atəşgah” Sığorta Şirkəti ASC 233 müqavilə və “Qala Sığorta” ASC 229 müqavilə ilə bir-birinə çox yaxın mövqedə qərarlaşaraq korporativ KASKO bazarında güclü rəqabət aparan əsas qrupu formalaşdırırlar. Müqayisədə “Xalq Sığorta” ASC 87 müqavilə və “A-Qroup Sığorta Şirkəti” ASC 40 müqavilə ilə daha mülayim bir portfel nümayiş etdirdiyi halda, “AZSIĞORTA” ASC 6 müqavilə ilə və “İpək Yolu Sığorta” ASC isə hesabat dövründə qeydə alınmayan göstərici ilə hüquqi şəxslərin KASKO seqmentində minimum aktivlik nümayiş etdiriblər.

Yekun olaraq qeyd etmək olar ki, hüquqi şəxslərin KASKO sığortası bazarı bir əsas lider və dörd güclü rəqib şirkətin ətrafında konsentrasiya olunmuşdur.

2026-cı ilin yanvar-mart ayları üzrə KASKO sığortası bazarının fiziki və hüquqi şəxslər seqmentindəki pay bölgüsü fərqli rəqabət mühitini ortaya qoyur. Fiziki şəxslərin KASKO sığortası seqmentində "PAŞA Sığorta" ASC 68%-lik mütləq bazar payı ilə şəriksiz liderdir və onun ən yaxın təqibçisi olan "Atəşgah" Sığorta Şirkəti ASC portfelin 20%-nə sahibdir. Yerdə qalan şirkətlərin payı isə 4% və daha aşağı göstəricilərlə əhatə olunur.

Hüquqi şəxslər seqmentində isə rəqabət daha balanslı xarakter daşıyır. Burada da "PAŞA Sığorta" ASC 34% payla birinciliyi qorusa da, "Azərbaycan Sənaye Sığorta" ASC 15%, həmçinin "Atəşgah Sığorta", "Meqa Sığorta" və "Qala Sığorta" ASC-lərin hər biri 14%-lik bərabər payla güclü bir rəqabət qrupu formalaşdırırlar. Hər iki diaqramın ümumi müqayisəsi göstərir ki, fiziki şəxslər üzrə KASKO bazarı tək bir şirkətin dominantlığı altında olduğu halda, hüquqi şəxslər seqmentində bazar payları liderlər arasında daha bərabər şəkildə bölüşdürülmüşdür.






## Cəmi




## KASKO ödənişləri TOP-3 (2026-cı il yanvar-mart ayları)




2026-cı ilin yanvar-mart ayları üzrə KASKO sığorta ödənişlərinin TOP-3 reytinqində birinci yerdə 3 milyon 535 min 724 manat ödəniş ilə lider şirkət "PAŞA Sığorta" ASC-dir. Onu 1 milyon 719 min 395 manatla "Atəşgah" Sığorta Şirkəti ASC və 1 milyon 42 min 208 manatla üçüncü pillədəki "Qala Sığorta" ASC təqib edir.

Qeyd edək ki, 2026-ci il yanvar-mart ayları ərzində 9 sığorta şirkəti tərəfindən 3.818 avtomobil sığortalanıb. Bu da KASKO üzrə 2026-cı ilin 1-ci rübü ərzində 8 milyon 387 min manat ödəniş ilə könüllü sığorta siniflərinin 4,6%-ni təşkil edərək ölkəmizdə KASKO sığorta üzrə aparılan işlərin faydasını bir daha sübut edir.

KASKO məhsulu üzrə sığortalanmış bütün avtomobillərin 56%-i fiziki şəxslərin, 44%-i hüquqi şəxslərin payına düşür.





QROUP

Sığorta növü: KASKO
Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi
Ödənilmiş sığorta məbləği: **17.575 AZN**

AtəşgahSığorta



Sığorta növü: KASKO
Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi
Ödənilmiş sığorta məbləği: **80.346,48 AZN**







Xalq Həyat

Sığorta növü: İpoteka krediti götürən şəxslərin həyat sığortası
Sığorta hadisəsi: Borcalanın xəstəlik səbəbindən vəfat etməsi
Ödənilmiş sığorta məbləği: **42.365,63 AZN**

Xalq Sığorta





Sığorta növü: KASKO
Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi
Ödənilmiş sığorta məbləği: **21.379 AZN**





QALA Hayat
Sığorta şirkəti

*Sığorta növü: İstehlak krediti üzrə borcalanın həyat sığortası*
*Sığorta hadisəsi: Ölüm halı*
*Ödənilmiş sığorta məbləği:* ***6.266,16 AZN***

QALA SIĞORTA






*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***15.000 AZN***




MEQA SIĞORTA

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***26.250 AZN***

MEQA HƏYAT

*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın sığorta müddətinin bitmə tarixinədək yaşaması halı*
*Ödənilmiş sığorta məbləği:* ***143.324,55 AZN***



**QALA SIĞORTA**

“Qala Sığorta” ASC tərəfindən, Azərbaycan Respublikasının Mərkəzi Bankının təşəbbüsü və Güvən Təhsilin İnkişafına Dəstək Fondu ilə əməkdaşlıq çərçivəsində “Sığorta nədir və necə işləyir?” mövzusunda maarifləndirici təlim keçirildi. Təlim aztəminatlı ailələrdən olan uşaq və gənclərin maliyyə savadlılığının artırılmasına və sığorta biliklərinin inkişafına yönəldi. Bu istiqamətdə maarifləndirici təşəbbüslər “Qala Sığorta”nın peşakar əməkdaşları tərəfindən davamlı şəkildə həyata keçirilir və cəmiyyətin sığorta mədəniyyətinin formalaşmasına mühüm töhfə verir.











AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Azərbaycan Sığortaçılar Assosiasiyası

asa_insurance

ASA Azərbaycan Sığortaçılar Assosiasiyası
(Azerbaijan Insurers Association)

https://www.asa.az/